# AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI MÜƏLLİMLİYİ-050101 İXTİSASININ TƏLİM NƏTİCƏLƏRİ

**PTN 1.** Azərbaycan dilində və xarici dildə ünsiyyət qurur, müzakirələr aparır, Azərbaycan tarixi, ədəbiyyatı, mədəniyyəti, insan haqq və hüquqlarına dair biliklərə sahib olduğunu nümayiş etdirir.

**PTN 2.** Peşəsi ilə əlaqədar İnformasiya və kommunikasiya texnologiyalarından (İKT) səmərəli şəkildə istifadə edir.

**PTN 3.** Peşə etikasına uyğun davranır və sosial həyat bacarıqlarına sahib olduğunu nümayiş etdirir.

**PTN 4.** Sağlamlıq və təhlükəsizliyi, mənəvi, psixoloji, fiziki sağlamlığın qorunması qaydalarına əməl edir.

**PTN 5.** Pedaqoji və psixoloji fəaliyyətin həyata keçirilməsi, tədrisdə düzgün təlim metodikasının və qiymətləndirmə prosedurlarının müəyyən edilməsi ilə əlaqədar xüsusi biliklərə malik olduğunu nümayiş etdirir.

**PTN 6.** Təlim və tərbiyə prosesinin və valideyn və onu əvəzedənlərlə əməkdaşlığın həyata keçirilməsinə, öyrənmə fəaliyyəti üçün münbit şəraitin yaradılmasına dair biliklərə malik olduğunu nümayiş etdirir.

**PTN 7.** Dil və ədəbiyyatın tədrisini planlaşdırarkən, qiymətləndirmə vasitələri seçərkən və ya təhsil proqramına sonradan hər hansı bir düzəliş edərkən təhsilalanların ehtiyaclarını nəzərə alır.

**PTN 8.** Dil, ədəbiyyat, və mədəniyyətlə əlaqədar əhatəli təlimi yerinə yetirə biləcəyini nümayiş etdirir.

**PTN 9.** Dil və ədəbiyyatla bağlı arqumentləri aydın və inandırıcı dillə izah edə biləcəyini, ədəbi-mədəni dövrlər və hadisələr arasında səbəb nəticə əlaqələri qurdura biləcəyini nümayiş etdirir.

**PTN 10.** Dilin sistemini, strukturunu, tarixi inkişaf mərhələlərini konkret dil materialı əsasında izah və təhlil edir

**PTN 11.** Peşə və şəxsi inkişafla əlaqədar vəzifələri müstəqil müəyyənləşdirməyi, öz təhsilini dayanıqlı inkişaf etdirməyi, ixtisasının artırılmasını planlaşdırmağı dərk etməyə istqamətlənir

**PTN 12.** Çağdaş dünya ədəbi-nəzəri fikrində və dilçilikdə mövcud olan əsas təmayüllərlə tanış olur, faktları sintez edir, müstəqil fikir yürüdür

**PTN 13**. Dil və ədəbiyyatın tədrisinin ümumi nəzəri prinsiplərini, yeni metod və üsulları seçə bilir, onların səmərəliliyinin və keyfiyyətinin artırılmasını nümayiş etdirir

**PTN 14.** Dil və ədəbiyyatın təlim nəticələrinin ölçülməsinə yönəlik məqsədəuyğun, etibarlı qiymətləndirmə vasitələrinin hazırlanması prinsiplərini bilir və qiymətləndirmə üsul və vasitələri hazırlayır.